UOT:811.

# QƏDİM ALBAN ÖLKƏSİNDƏ MƏSKUNLAŞAN TÜRKDİLLİ ETNOSLAR

***Mehdiyeva Gülbəniz Hacıbaba qızı***
***Bakı Slavyan Universiteti***
***Gceferova@rambler.ru***

**Xülasə:** *Türk xalqlarının tarixində Musa Kalankatuklunun "Alban tarixi" əsəri xüsusi mövqeyə malikdir. Belə ki, "Alban tarixi" kitabında çoxlu sayda türk mənşəli etnonimlər vardır. Bizim məqalənin əsas məqsədi bu əsərdə adı çəkilən etnonimlərinin etimoloji – linqvistik təhlilini,onların mənşəyini təhlil etməklə bərabər etnonimlərin müasir dövrümüzə qədərki tarixi inkişafından bəhs etmək.*

**Açar sözlər:** "Alban tarixi" etimologiya, ekoetnonimlər, etnoslar, qəbilələr, mənşə, linqvistik təhlillər.

**Ключевые слова**: «История Албан», этимология, экоэтнонимы, этносы, племя, происхождение, лингвистические анализы.

**Keywords:** "History of Albanians", etymology, eco-ethnonyms, ethnoses, tribe, origin, linguistic analyses.

Tarixi inkişaf prosesində ta qədim zamanlardan başlayaraq, yəni artıq özünü tanımış dini, dili, ənənəsi yaranmış olan hər bir xalqın özünün soyadı olur. Bəzən tarixdə elə etnoslara da rast gəlirik ki, onlara qonşuları ad qoyur. Müəyyən bir xalqın, etnosun, tayfanın - kənardan adlandırılması ***ekoetnonim*** kimi qəbul edilmişdir. Tarixi-siyasi şəraitdən asılı olaraq, müxtəlif müharibələr və böyük köçlər, dilə keçən yad ünsürlər nəticəsində dilin aldığı istiqamətlər, xalqın həyat tərzinə, yaşadığı ərazinin adına hətta geyiminə böyük təsir göstərir və xalq zaman-zaman dəyişə bilir ki, ona verilən ad özünü tarixən doğruldur. Xalq, millət, etnos yaşadıqca onun öz içindəki qanından-canından gələn milli soyadı min illərlə yaşadır, lakin xalq və ya etnos tarix səhnəsindən silinib gedərsə,onun adı unudulmur. Nəsil – qan qohumlarından ibarət insan qrupudur. Tayfa – Eyni yaranma tarixinə, dini təsəvvürlərə, dialektə, adət- ənənələrə malik olan nəsillərin birliyidir. Xalq – tarixən eyni ərazidə məskunlaşan insanların dil, mədəniyyət və əxlaq birliyidir. Millət – Etnik mənsubiyyət, ədəbi dil, milli mədəniyyət və iqtisadi münasibətlərin mövcud olduğu birlikdir.

Etnos - mədəni irsin daşıyıcısı və yayılma arealından asılı olmayaraq eyni etnik mənsubiyyətli (dil, mədəniyyət, əxlaq və s.) insanların birliyidir. Etnoslar müəyyən coğrafi mühitdə formalaşır, yaranır, müəyyən dövr ərzində mövcud olur, sonra tarix səhnəsindən silinirlər. Yeni yaranan etnoslarla birlikdə yeni ideologiyalar və fərqli dünyagörüşü də yaranır. Qəbilə - ibtidai insanların bir soydan törəmiş olduqları və bir başçının iradəsi altında birləşən insan qrupları, tayfalardır ki onlardan bəziləri köçəri həyat sürmüşlər. XI əsr Mahmud Kaşqarinin lüğətində oğuzca qəbilə sözü boy kimi izah olunur. Məlumdur ki, XIX əsrin maarifçilərindən biri olan, Azərbaycanın ilk tarixçisi A.Bakıxanov qədim tayfa, qəbilə adlarının mənşəyinə ilk dəfə olaraq "Gülüstani-İrəm" əsərində bəhs etmişdir. Azərbaycan ərazisində yaşayan tayfalar, çoxsaylı millətləri təşkil edən əhali və bu əhalinin etnik tərkibi yaşadıqları ərazinin coğrafiyası, qarşılaşdıqları siyasi hadisələr onların məşğuliyyətləri haqqında çox qiymətli məlumatlar qədim Yunan və Roma tarixçilərilərindən və coğrafiyaşünaslarından Amasiyalı Strabon (e.ə.63-b.e.23), Ptolomey, Plinin Ktesi, Tit Livi, Tatsit, Ammian Marselin, Yuli Solin və b. şərq aləminə həsr etdikləri əsərlərində öz əksini tapmışdır. Strabon albanların məskunlaşdığı yerlə bağlı başqa bir yerdə yazır: " Onlar (albanlar) iberlərlə Xəzər dənizi arasında yaşayırlar; (albanların yaşadığı ərazi) şərqdə dənizə bitişir, qərbdə isə iberlərlə həmsərhəddirlər. [169, XI,1].

Herodot - ən məşhur yunan tarixçisidir. Eramızdan əvvəl 480 və 425-ci illər arasında yasamışdır. Herodotun kimmerilər və skiflərin şimaldan hərəkət etmələri, ticarət yolları, İran dövlətinin sərhədləri satrapları, Azərbaycanda və onunla qonşu olan yerlərdə yaşayan qəbilələr haqqında verdiyi məlumat Azərbaycan tarixi üçün eləcə də tarixi dilçilik üçün olduqca

qiymətlidir. IV əsrdən başlayaraq Azərbaycan ərazisində baş verən tarixi və siyasi hadisələri, xüsusilə hun və türk tayfalarının Ön Qafqaza axını və onların qədim etnik adları barədə Bizans mənbələrində Menandr, Prokopi, Aqafi, Lordon və b. öz əsərlərində müxtəlif məlumatlar qoruyub saxlamışlar.

Tarixi dilçilikdə maraqlı məsələlərdən biri də qədim Albaniyada yaşayan etnosların müxtəlif dillərə malik olmasıdır. Cənubi Qafqazda "Albaniya" adlı ölkənin adını ilk dəfə yunan coğrafiyaçısı Strabon (e.ə.65 - b.e.25) çəkmişdir [20,XI, 1, 5] Məqsədimiz, onların yaşadığı ərazini, etnik xüsusiyyətlərini, dillərini araşdırmaqdır. Etnonimlərin tədqiqi prosesində xalqın ən qədim etnoslarının adları haqqında geniş məlumatlar əldə olunur.

Hər bir xalqın təşəkkülü tarix boyu davam etmiş arasıkəsilməz etnik prosesin nəticəsidir. Etnik prosesin komponentləri qəbilələr, tayfalar, xalqlar və millətlər, bir sözlə, etnoqrafiyada qəbul edildiyi kimi etnoslardır [15,s.81].

**Qarqarlar** - "O, xaçpərəstliyi burada yenidən canlandırıb möhkəmləndirir və Udin vilayətində, Albaniya,Lipiniya, Kaspiya, Çola keçidinə qədər uzanan torpaqlarda və vaxtilə Makedoniyalı İskəndər əsir edib, buraya, Böyük Qafqaz dağları yaxınlığına köçürdüyü qarqarlar və kamiçik eftalitlər qəbilləri arasında İncili təbliğ edir"[11,51] Albanlardan sonra Azərbaycanda geniş ərazilərdə məskunlaşmış əsas tayfalardan biri qarqarlar idi. Q.Qeybullayev müəllifi olduğu "Azərbaycanlıların etnogenezi" kitabında yazmışdır:"Türkdilli tayfalar bunlardır:albanlar, saklar, aranlar, dondarlar, **qarqarlar** tərtərlər, kataklar, kergillər, peçeneqlər, kurslar, kollar, çollar, kəngərlər, hunlar, savarlar, ijmaxlar/şamaxlar, savdeylər, suranlar/ şarvanlar" [15, 43 ] .

Alban ölkəsində yaşayan iyirmialtı tayfanın mövcudiyyəti və hər bir tayfanın fərqli dilə mənsub olması, tayfaların tərkibi haqqında məlumatı ilk dəfə hələ e.ə. Strabon vermişdir. Qarqarlar çox qədim etnosdur. Mənbə olmadığından onların Şimali Qafqazdan Albaniya ərazisinə nə vaxt endiklərini söyləmək çətindir. Kalankatuklu Musa qarqarların Makedoniyalı Iskəndər dövründən Albaniyada yaşadığı barədə məlumat vermişdir. Lakin qədim türk tayfalarından olan qarqarlar haqqında e.ə. I minilliyin başlanğıcında yaranmış "Iliada" əsərində də məlumat var: "Homer "Iliada"da Idı dağında *Qarqar* zirvəsinin və Dardanel boğazından azca aralıdakı *Qarqar* şəhərinin adlarını çəkir". [16,30-31] .Qarqar qədim türk mənşəli tayfalardan biridir. Hələ b.e. I əsrində Strabon qarqar tayfasının adını çəkmiş və onların Şimali Qafqazda yaşamalarını qeyd etmişdi [20,XI,s.509]. Şübhəsiz ki, qədim qarqarların bir hissəsi Atropotenada yaşamışlar. Müasir dövrümüzdə də qarqarların yaşadıqları məntəqələrə rast gəlmək olar [5,s.29] V.V.Bartold qeyd edir ki: "Qarqarlar eyni adlı qırğız dastanının əfsanəvi qəhrəmanı Manasın babaları idilər və qırğız eposu "Manas"ın qəhrəmanı Manasın xalqı da qarqar və ya qıpçaqlar idi" [3,s.39]. Azərbaycan ərazisində qarqar ismi ilə adlandırılan toponimlər çoxdur. Qarqar/Karkar toponimi geniş işlənmə arealına malik olmuşdur. V əsrdə Qarqar dili üçün əlifba yaradılması haqqında mənbədə məlumat da vardır. Qarqarların etnik mənsubiyyəti haqqında elmdə bir neçə fikir mövcuddur. Bir sıra araşdırmaçılar qarqarların türkdilli olduğunu qeyd edirlər. Digər alimlər isə səhvən qarqarların İber-Qafqaz etnik qrupuna aid olduğunu iddia edirlər. Rus araşdırmaçıları P.K.Uslar, E.İ.Krupnov, A.Q.Şanidze, N.Q.Volkova və b. öz əsərlərində qarqarları Qafqazdilli sayırlar. Görkəmli türkoloq Kamilla Trever 1956 – cı ildə yazdığı "К изучению Кавказской Албании" məqaləsində [21,27-28] qarqarları Qafqaz Albaniyasında ən geniş yayılmış küp qəbirləri mədəniyyətinin sahiblərindən biri hesab edir. Qeyd edək ki *"...xəzər, bulqar, avar, apar, bar, salor, kəbər, qacar, kəngər,qarqar* və s. kimi *-ar, -ər, -ir, -ur, -or* komponentli etnonimlər də diqqəti cəlb edir. Bir sıra araşdırmaçıların fikrincə, göstərilən etnonimlər türk dillərində "adam, ər, kişi" mənasında işlənmiş *ar, ər, ir* sözünün yardımı ilə yaranmışlar" [27,s.157]. Alban xalqı və dövləti hələ e.ə.III-IV əsrlərdə mövcud idi və bu qədim türk mənşəli xalqın əlifbası, yazısı, mədəniyyəti, incəsənəti, ədəbiyyatı var idi. Tərəddüd etmədən demək olar ki, b.e. XIII əsrə qədər Azərbaycanda Alban dilində, yəni qədim türk dilində danışılırdı və deməli, əsər də qədim türk dilində yazılmışdır. Əsərdə rast gəldiyimiz türkizmlər bunu bir daha təsdiqləyir. Biz bu türkizmlərə antroponim, toponim və etnonimlərin tərkibində rast gəlirik. Abidənin dilində işlənən

etnonimlərin böyük əksəriyyəti türkcədir və Azərbaycan türklərinin tarixi ilə sıx bağlıdır. Bu baxımdan, onların öyrənilməsinin həm tariximizin, həm də etnogenezisimizin tədqiq olunması üçün böyük əhəmiyyəti vardır. Azərbaycan ərazisində əsrlər,qərinələr boyu zaman - zaman məskunlaşmış qədim tayfalar, qəbilələr haqqında müxtəlif mənbələrdə,qədim abidələrdə, kitabələrdə müəyyən məlumatlar vardır. Azərbaycanda qədim etnonimlərə antik dövr müəlliflərindən olan Strabon, Plutarx, Plininin (alban, qarqar, uti, qellər, kadusilər, amardlar, vitlər, anariaklar) sonra yunan və Roma mənbələrində - Hekatey Miletskinin (miki, dondar), Heredotun (kaspi, kel, girkan, anariak, qarqar, sirak, mard, sak, massaget və s.), Dionisinin (hun, kaspi, girkan, mard və s.) əsərlərində rast gəlinir. Qədim Azərbaycan ərazisində yerləşən Albaniyada məskunlaşmış etnonimlərin etiimologiyasının müəyyənləşdirilməsi haqqında ilkin məlumata o dövrdə yaşayan antik müəlliflərin əsərlərində rast gəlirik. Strabon, Hekatey Miletskiy, Plini, Plutarxdan başlayaraq, M.Kaşğari, Rəşidəddin, A.A.Valitova, Ə.Hüseynzadə, N.A.Baskakov, Q.Qeybullayev, V.Maxpirov və dövrümüzə qədər bir ordu sayında türkoloq – alimlərimizin adlarını çəkmək olar.

Azərbaycan xalqının özünün və dilinin təşəkkül tapmasında təkcə qıpçaqlar və səlcuq oğuzları deyil, bu tayfalara qədər artıq mövcud olan albanlar və atropotenliləri də qeyd etmək lazımdır. Səlcuq-oğuzları Azərbaycanın hər iki hissəsində türkdilli əhalinin sayını, demək olar ki, çoxaltmışlar. Bütün antik mənbələrə istinad edərək inamla demək olar ki, Alban ölkəsində hələ qədimdən türkdilli xalqlar - tayfalar yaşayırdılar. Deməli, əcdadlarımız olan alban etnosunun qədim Alban ölkəsində hələ türk tayfaları gələnə qədər artıq yerli(öz dilləri) özlərinə məxsus dili, yazısı və yerli mədəniyyəti var idi. Və bu dilin, mədəniyyətin əsasında yaranmış qüdrətli Alban ölkəsi artıq IV əsrdə çiçəklənmə dövrünə qədəm qoymuşdu. Başqa sözlə, Alban, Arran dili, yəni ulu alban - qədim-türk dili yerli dil sayılırdı. Əlbəttə bu dilin- ulu alban- qədim- türk dilinin özünəməxsus qrammatik xüsusiyyətləri, düzgün orfoepik oxu (danışıq tərzi)Alban yazısı (əlifbası nəzərdə tutulur) var idi.

Məlumdur ki, Kür çayı və Xəzər sahili boyunca eramızın ilk əsrlərindən başlayaraq, (bəlkə daha da tez) yaşayan müxtəlif etnosların mövcudluğu artıq tarixi faktlara əsaslanır. Qeyd etmək lazımdır ki, Albaniyada mövcud olan tayfaların tərkibi haqqında ilk dəfə Strabon məlumat vermişdir. Digər I əsr antik mənbələrindən də məlum olur ki, sakasenlər, qellər, leqlər və lbinlər Albaniyanın sakinləri olmuşlar. Musa Kalankatuklunun "Alban tarixi" əsərindən tayfaların müxtəlif dilli olması da məlumdur [11,s, 89] Qeyd etmək lazımdır ki, Alban ölkəsində yaşayan tayfaların səviyyəsi və bu tayfaların «dil»lərinin səviyyəsi, mövqeyi eyni olmamışdır. Əvvələn, «26 dil» dedikdə 26 müxtəlif tayfa nəzərdə tutulmuşdur. Bu tayfaların bir çoxu türkdillilər olmuş və onları yalnız şivə fərqləri bir-birindən ayırmışdır. Mənbədə aqvan (alban), qarqar, hun, maskut, mihr (mehran), leq, savdey, uti və çilb tayfalarının adı çəkilir. Q.Qeybullayevin Albaniyada məskunlaşan tayfalar haqqında apardığı araşdırmalara əsaslanaraq adı çəkilən etnonimlərdən bir-neçəsini təhlil etməyə çalışacağıq.

**Hunlar** – "Bundan sonra hunlar çarı Cavanşiri görmək istədi və Cavanşirin yanına öz qardaşlarını göndərərək onların vasitəsilə görüş istədi ki, aralarında qardaş məhəbbəti yaransın"[43,s.217]. "Eramızdan əvvəl VI əsrdə Mərkəzi Asiyada böyük bir ərazidə (Şərqi Türküstandan, qərbdən cənubi Mancuriyaya qədər, şərqdən Qobi və Ordosdan cənubdan Tuvaya və şimaldan Baykal ətrafına qədər) hunlar qüvvətli hakimiyyət yaratmışdılar [122,s.1-7]. L.N.Bernştama görə, hunların orta Asiyada böyük kütlələrlə görünməsi eramızdan əvvəl I əsrin ortalarına təsadüf edir [99,s.83]. Albanlar Şimali Azərbaycanın qədim əhalisi idilər. Ölkədə albanlarla yanaşı , abant, aran, qat, quqar,qarqar, kaspi, kəmər, lpin, maskut, sliv, cilb, çul, gel, lek, sak uti, şarvan, şamak, şirak, donqar, kanqar, tərtər, sovde, hun, savar, macar, bolqar, her tayfalarının da yaşadığı müəyyən edilmişdir. Axtarışlar nəticəsində bunlardan abant, aran , qarqar, quqar, kaspi, kəmər, sak , uti, maskut, satak, çul, şarvan, şamak, kanqar, donqar, tərtər, sovde, hun, savar, macar, bolqar və şirak tayfalarının türk mənşəli olduğu dəqiqləşdirilmişdir. Yerdə qalan tayfaların əksəriyyəti ( udin, lpin, ciqb, silv, leq) qafqazdilli, bir qismi (mehran, gel,

maskut) irandilli tayfalar hesab olunur [9,s.142-189] Dionisinin bu məlumatına görə artıq II əsrdə qədim Albaniyada yerli sakinlərindən biri də hunlar idi. Onların yaşadığı ərazi indiki Quba, Qusar, Xaçmaz rayonlarının yerləşdiyi ərazidən cənubda Beşbarmaq dağına qədər uzanırdı. Miladdan əvvəl IV əsrdə Alban çarlığı ilə yanaşı hunların da müstəqil çarlıqları olmuş, Alban çarlığına tabe edilməmiş (bu faktı Musa Kalankatuklu da təsdiq edir) paytaxt şəhəri Çol (Çola) imiş. Görkəmli alim, tarixçi M.İsmayıl hunlar haqqında maraqlı məlumat verir; "...onları bəzən də onaqurların çarlığı adlandırır, məskutlar çarlığı deyə xarakterizə etmişlər. IV yüzilliyin 30-cu illərində bu çarlığa Sanatruq (Sanesan) başçılıq etmiş, hunlarla birlikdə dəfələrlə Paytakaran və Uti vilayətinə soxulmuş, Ermənistana hücum etmiş, onu bir il öz əlində saxlamışdı. Onun atlı alayının sayı-hesabı yox idi..." [43,s.190].

Albaniyada, əsasən də Arsaxın ərazisində hunlar iz qoymuşdur. Q.Qeybullayev yazır: XIX əsrdə Qarabağ düzünün 36 min desyatinlik hissəsi Xonaşen adlanırdı. Vizantiya tarixçisi Feofan yazır ki, 624-cü ildə Vizantiya çarı İraklı Albaniyada "Hun ölkəsi" adlı yerdə xəzərlərlə görüşmüşdür. Güman etmək olar ki, "Hun ölkəsi" adlı həmin yer məhz Xonaşendir. Xonaşen toponimlə qeyd olunmalıdır ki, onun tərkibindəki "şen" sözü heç də erməni araşdırmaçılarının dediyi kimi, erməni dilindən deyildir. *Şen* sözü qədim türk mənşəlidir, XIII əsrə aid "Türk-ərəb lüğəti"ndə qıpçaq dilində "məskun, sıx əhalisi olan" mənalarında şen sözüvardır"[111,s.108]. **Oğuzlar** - V.F. Minorski "quzlar"dan türk etnosu kimi bəhs edir [149,s.147]. X.K.Baranovun "Ərəb - rus lügətində" üz/güz sözünün qarşısında türklər (məmluklar) yazılmışdır. T. Hacıyev yazır: "Bir sıra müəlliflər haqlı olaraq işquz (aşkenaz) etnonimi ilə "Kitabi-Dədə Qorqud"dakı içoğuz arasında uyğunluq görürlər (oğuz və quz//küz sözləri və deməli etnonimləri eynidir)" [34,s.24]. Tədqiqatçı sonra qeyd edir ki, "..xəz-quz-qaz-kas eyni sözün fonetik silsiləsidir. Bu toponimlərin əsasında qədim türk etnonimi olan oğuz sözü dayanır...Şübhəsiz ki, qədim türk tayfalarının adları az, uz, quz, oğuz həm etnik varlıq, həm də leksik vahid kimi bir mənşədən çıxır" [33, s.32]. A.N.Sokolov yazır: "Biz Orta Asiyada yaranmış yarım köçəri oğuz və ha quz türk çarlığını birinci təmiz türk çarlığı hesab edirik" [168, s.94]. M.Seyidov XIV-XV əsr müəllifi ər-Rəşid əl-Bakuvidən gətirdiyi statdan belə məlum olur ki, toqquzlar ata tapınmışlar. Sonra M.Seyidov toqquzlar sözünü belə təhlil edir. Bizcə, "bu doqquz - quzlar - oğuzlar deməkdir" [67,s.283]. Oğuz adının etimologiyası haqqında bir çox fikirlər irəli sürülmüşdür. Məşhur macar alimi Y.Nemet oğuz sözünü ok-uz şəklində təhlil etmişdir. Onun fikrincə «ok» qəbilə, boy, «z» isə cəm ədatıdır. Beləliklə, oğuz «boylar» deməkdir. Həqiqətən, oxun qədim zamanlarda boy mənasına gəldiyi məlumdur. Qərbi göytürk dövləti də on boydan ibarət idi və həmin on boya on ox deyilirdi.

***Ədəbiyyat***

1.Абаев В.И. Осетинский язык и фольклор. Москва – Ленинград, 1949, 608
2.Аммиан Марцеллин,История,пер.с латинского Ю.Кулаковского, Киев 1906-1908.
3.Бартольд В. В. Из прошлого турок, Пг, тип-фия, П. Ф. Вощинской, 1917, 444с.
4.Bakıxanov A. Gülüstani-İrəm. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı,2000.
5.Budaqov B.Ə. Türk uluslarının yer yaddaşı. Bakı, Elm, 1994, 270 s.
6.Z.Bünyadovundr, Bakı: "Elm" ,1993, 269 s.
7.Еремян С. Т. Моисей Каланкайтукский о посольстве албанского князя Вараз-Трдата к хазарскому хакану Алп-Илитверу. Записки Института востоковедения, АН СССР, т. VII, 1939, с. 129-155.
8.Əhmədov T.M. El-obamızın adları. Bakı: Gənclik, 1984,128s.
9.Xəlilov B. Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərində etnonimlər Bakı -2009. s.106.
10.Kazımov Q. Azərbaycan dilinin tarixi. Bakı: Təhsil, 2003, 584 s.
11.Kalankatuklu M. Albaniya tarixi. Müqəddimə, tərcümə, qeyd və şərhlər Z.Bünyadovundr, Bakı: "Elm" ,1993, 269 s.
12.Kaşğari M. Divanü Lüğat-it-Türk. Təcümə edən: Ramiz Əskər, Bakı: Ozan, 2006, I cild, 400 s.

13.Kaşğari M. Divanü Lüğat-it-Türk. Təcümə edən: Ramiz Əskər, Bakı: Ozan, 2006, IV cild,760 s .
14.Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Azərbycan Dövlət Nəşriyyatı, Bakı:1994, 248s
15.Гейбуллаев Г.К.Етногенезу Азербайджанцев (историко- этнографическое исследованием), т.1- Баку: Элм,1991, 552 с.
16.Qukasyan V. Qafqaz Albaniyası, Bakı: "Öyrətmən"1993,108s.
17.Mikayılov R.S. Azərbaycan ərazisində tayfalar, Bakı, 2005.
18.Muxtarova Əsməd Türk xalqlarının tarixi, "Adiloğlu" nəşriyyatı, Bakı- 2013.
19.Rəşid-əd Din Fəzlüllah "Oğuznamə" Azərbaycan Milli Ensklopediyası NPB, Bakı:2003,108 s.
20.Страбон География в 17-ти книгах. Перевод статья и комментарий А.Стратановского. М.: Изд-во Наука, 1964, 941 стр.XI kitab 490-533s.
21.Тревер К.В. К изучению Кавказской Албании/Тез.докл. на пленар.засед. Конф. По археологии Кавказа. Ереван, окт.1956, Москва,с 27-28, 419с.
22.Велиев М.Г.(Бахарлы) Азербайджан Физико Географический, этнографический и экономический очерк, 1921, 36с.
23.Vəlixanlı Nailə, Ərəb xilafəti və Azərbaycan,Azərbaycan Dövlət nəriyyatı, Bakı 1993.

## ТЮРКОЯЗЫЧНЫЕ ЭТНОСЫ, НАСЕЛЯВШИЕ ДРЕВНЮЮ АЛБАНСКУЮ СТРАНУ

***Мехтиева Гюлбаниз Гаджибаба кызы***

***Резюме***

В истории тюркских народов особое положение занимает труд Мусы Каланкатуклу "албанская история". Так, в книге "албанская история" содержится большое количество этнонимов тюркского происхождения. Основная цель нашей статьи – наряду с этимолого-лингвистическим анализом упомянутых в данной работе этнонимов,анализом их происхождения, рассказать об историческом развитии этнонимов до наших дней.

## TURKIC-SPEAKING ETHNOS SETTLED IN ANCIENT ALBANIAN COUNTRY

***Mehdiyeva Gulbaniz Hacibaba***

***Summary***

The work "Albanian history" by Musa Kalankatuklu has a special place in the history of Turkic peoples. Thus, there are many ethnonyms of Turkic origin in the book" Albanian history". The main purpose of our article is to talk about the etymological and linguistic analysis of the ethnonyms mentioned in this work,as well as the historical development of ethnonyms up to the present time by analyzing their origin.

***Rəyçi: Dos. G.H.Qafarova***
***BSU Azərbaycan dili və onun tədrisi kafedrasının 19 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olduğu tarix 16 noyabr 2021-ci il***

**UOT:82.(091).**

## SOSİAL VƏ SİNFİ ZİDDİYYƏTLƏR ROMANI

***Dos. Məmmədov Fərrux Məmməd oğlu***
***Bakı Slavyan Universiteti***

**Xülasə:** *Fərman Kərimzadə XX əsr Azərbaycan ədəbiyyatında bir sıra maraqlı əsərlərin müəllifidir. Eyni zamanda, yazıçı tez-tez yaradıcılığında aktual məsələlərə də müraciət edib. 1970-ci illərin əvvəllərində yazılmış "qar aşırımı" romanı da aktuallığı ilə diqqəti cəlb edir. "Qar*